

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 141 (23.783)

6 avqust 2021-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Muxtar respublikada əhalinin səmərəli məşğulluğu diqqət mərkəzindədir

***Muxtar respublikada iqtisadi və sosial sahələrdə həyata keçirilən tədbirlər davamlı inkişafı təmin etməklə yanaşı, əhalinin səmərəli məşğulluğuna da yeni imkanlar yaratmışdır. Son dövrlər geniş vüsət almış tikinti-quruculuq işləri, istifadəyə verilən yeni istehsal və xidmət sahələri, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, müasir avtomobil yolları və digər infrastruktur obyektləri bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir.***



Muxtar respublikada 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015 və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramlarının uğurlu icrası bu sahənin inkişafında təkanverici rol oynamışdır. Bu tədbirlərin davamı olaraq cari ilin yanvar ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olunmasına, yeni iş yerlərinin yaradılmasına və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarında real vəziyyətin təhlil edilməsinə, eyni zamanda tələbata uyğun kadr hazırlığının aparılmasına, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə yeni imkanlar yaradacaqdır.

Ötən dövrdə yeni iş yerlərinin yaradılması diqqətdə saxlanılmış, 2011-ci ildən 1 iyul 2021-ci il tarixədək muxtar respublikada 33 min 364 yeni iş yeri açılmışdır. Açılmış iş yerlərinin 85,4 faizini daimi iş yerləri təşkil edib. Bu dövrdə ümumi açılmış iş yerlərinin 47,2 faizi Naxçıvan şəhərinin, 15 faizi Şərur, 11,2 faizi Babək, 7,1 faizi Ordubad, 9 faizi Culfa, 3,9 faizi Kəngərli, 4,3 faizi Şahbuz, 2,3 faizi Sədərək rayonlarının payına düşüb.

2021-ci ilin ilk yarım ilində muxtar respublikada sahibkarlara 18 milyon 253 min manat kredit verilmişdir. Verilmiş kreditin 7 milyon 690 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 10 milyon 563 min manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövrdə 28 hüquqi və 1342 fiziki şəxs qeydiyyata alınmışdır.

2021-ci ilin yanvar-iyun aylarında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 55 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 54 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.



Ümumi inkişafın təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər demoqrafik proseslərə də müsbət təsir göstərmiş, muxtar respublikada əhalinin sayı 2011-ci ilin sonu ilə müqayisədə 10,5 faiz artaraq 1 iyul 2021-ci il tarixə 462,3 min nəfər olmuşdur. Ümumi əhalinin 252,1 min nəfərini məşğul əhali təşkil etmişdir ki, bu da 2011-ci ilin sonu ilə müqayisədə 16,4 faiz çoxdur.

Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaratmışdır. Belə ki, 2011-ci ildə muxtar respublikada dövlət sektorunda çalışanların sayı iqtisadiyyatda çalışanların ümumi sayının 18,5 faizini təşkil etmişdirsə, 2021-ci ilin yanvar-iyun aylarında bu göstərici 15 faiz olmuşdur.

Cari ilin yanvar-iyun aylarında muxtar respublikada muzdla işləyənlərin sayı 98 min nəfər təşkil etmişdir ki, bunun da 37,8 min nəfəri dövlət sektorunda, 60,2 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,3 faizi sənaye, 12,1 faizi tikinti, 19,6 faizi topdan və pərakəndə ticarət, 5,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3 faizi yaşayışın təşkili və ictimai iaşə, 1,2 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,3 faizi peşə, elmi və texniki fəaliyyət, 1,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,8 faizi dövlət idarəetməsi və icbari sosial təminat, 14,4 faizi təhsil, 5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,5 faizi istirahət, əyləncə və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmış, 2021-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 540,8 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. 2011-ci ildə isə bu göstərici 341,4 manat təşkil etmişdir. Hazırda bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqının məbləği dövlət sektorunda 560,1 manat, qeyri-dövlət sektorunda isə 528,7 manat təşkil edir. Bir işçiyə hesablanmış ən yüksək ortaaylıq əməkhaqqı göstəricisi dövlət idarəetməsi və icbari sosial təminat, maliyyə və sığorta fəaliyyəti, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, həyata keçirilən mühüm layihələr, insan kapitalının inkişafı, rəqabətədavamlı və ixracyönümlü yeni məhsullar istehsal edən müəssisələrin yaradılması əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məşğulluq imkanlarını daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı”na əsasən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.***

## Taktiki-xüsusi təlim keçirilib



Taktiki-xüsusi təlimin mövzusu mülki əhali arasında çaxnaşma yaratmağa və təxribat törətməyə hazırlaşan şərti düşmənin təxribat-diversiya qrupunun gizləndikləri binada zərərsizləşdirilməsi olub.



Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimdə şəxsi heyətin praktik vərdişləri və binalarda döyüş əməliyyatlarının aparılması bacarıqları yoxlanılıb.

Əldə edilmiş kəşfiyyat məlumatına əsasən təxribatçı qruplar yaşayış məntəqələrinə yaxın ərazidəki tərk edilmiş binada gizləniblər. Şərti düşmənin təxribat cəhdlərinin qarşısının alınması məqsədilə xüsusi təyinatlı qruplar fərqli istiqamətlərdən və helikopterlərlə terrorçuların gizləndikləri binaya daxil olaraq müxtəlif atəş vasitələrindən istifadə etməklə təxribatçıları zərərsizləşdiriblər. Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları şərti düşmənin təxribat-diversiya qrupunu zərərsizləşdirmək üçün antiterror əməliyyatları zamanı binalarda yaxın məsafədə döyüş elementlərini yerinə yetiriblər.

Təlimin gedişində antiterror əməliyyatlarının icrası zamanı yaralanan hərbi qulluqçulara çevik şəkildə tibbi yardım göstərilib və yaralıların təxliyəsi həyata keçirilib. Şərti düşmənin təxribat cəhdinin qarşısını alan xüsusi təyinatlı qruplar müxtəlif silah nümunələrini ələ keçirib və təxribatçıların bir neçəsini əsir götürüblər. Beləliklə də, diversiya-təxribat fəaliyyətlərinin qarşısını alan xüsusi təyinatlılarımız təxribatçıları tam tərkibdə zərərsizləşdirməklə təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olublar.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin uğurla başa çatması münasibətilə mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Naxçıvanda və Türkiyə Respublikasının Qars şəhərində keçirilmiş döyüş atışlı birgə taktiki təlimlərin hər iki qardaş ölkənin hərbi qüdrətinin nümayişi olduğunu diqqətə çatdırıb. Bildirib ki, böyük öndərlərimiz Heydər Əliyevin ***“Bir millət, iki dövlət”*** və Mustafa Kamal Atatürkün *“Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”* şüarı ilə keçirilən təlimlərdə və hərbi qulluqçularımızın peşəkarlıqlarının artırılmasına xidmət edən kurslarda birliyimizin və bərabərliyimizin ifadəsinə çevrilib. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə keçirilən taktiki-xüsusi təlimin uğurla başa çatması Türkiyə Respublikasının Sparta və Kayseri şəhərlərində, Naxçıvandakı Dağ Təlim Mərkəzində təşkil edilmiş kurslarda və 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin peşəkarlıqla tətbiq edilməsinin əyani göstəricisidir.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## İctimai təhlükəsizliyin qorunmasına ciddi önəm verilir

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi iyul ayında da fəaliyyətini qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi istiqamətində qurmuşdur. Bu dövrdə vətəndaşlar arasında hüquqi-maarifləndirmə tədbirləri diqqətdə saxlanılmış, profilaktikaya geniş yer verilmişdir. Ay ərzində aparılan maarifləndirmə işləri nəticəsində əhalidən 3 avtomat, 1 tapança, 2 qaz tapançası, 8 ov, 3 tir silahı, 1 əl qumbarası, 1 beşbarmaq, 5 xəzinə, 1068 döyüş sursatı götürülmüşdür.

İyul ayında polis sahə inspektorları da üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşaraq mülki hüquqi öhdəliklərin icrasından yayınan 6 nəfər barəsində axtarış işi açmış, həmin şəxslər tutularaq açılma göstəricisi 100 faiz təşkil etmişdir.

Nazirliyin Dövlət Yol Polisi İdarəsi tərəfindən 630 sürücülük vəsiqəsi, 233 dövlət qeydiyyat nişanı, 635 qeydiyyat şəhadətnaməsi verilmiş, 46 nəqliyyat vasitəsinin ilkin, 552 nəqliyyat vasitəsinin təkrar qeydiyyatı aparılmışdır. Həmçinin ay ərzində ümumvətəndaş pasportu və şəxsiyyət vəsiqələrinin vaxtlı-vaxtında verilməsi də diqqətdə saxlanılmış, 1610 nəfər ümumvətəndaş pasportu, 5729 vətəndaş şəxsiyyət vəsiqəsi ilə təmin olunmuşdur. Nazirliyin “Səyyar xidmət”i tərəfindən vətəndaşlara göstərilən xidmət də davam etdirilmişdir. Şərur, Ordubad və Sədərək rayonlarında 1297 vətəndaşa şəxsiyyət, 126 vətəndaşa sürücülük vəsiqəsi, 19 nəfərə məhkumluq haqqında arayış verilmişdir. Bunlarla yanaşı, iyul ayında Bakı şəhərinə ezam olunmuş aidiyyəti xidmət əməkdaşları tərəfindən Azərbaycanın digər bölgələrində yaşayan 2487 muxtar respublika sakini biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## Növbəti aktivlər təqdim olunub

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iyul ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 29 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və bu ailələrdən 22 nəfərin hər birinə 2 baş iribuynuzlu, 3 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 2 nəfərə odunkəsən və otbiçən aparat, 1 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə isə otbiçən aqreqat verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 12 nəfərini sağlamlıq imkanları məhdud olan şəxs, 6 nəfərini şəhid ailəsi, 1 nəfərini müharibə veteranı, 1 nəfərini isə ailə üzvündə qazi olan şəxslər təşkil edib. Eyni zamanda təsərrüfatların nümunəvi şəkildə inkişaf etdirdiyinə görə 1 nəfər bu mərhələdə həvəsləndirmə tədbirlərinə cəlb edilib və ona arpa-buğda qıran aqreqat verilib.



Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub. Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Tədbirdə çıxış edən nazirlik aparatının rəhbəri Vüsal Süleymanlı və Kəngərli rayon Məşğulluq Mərkəzinin direktoru Səxavət Həsənov ötən dövr ərzində proqramın icrası istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər. Daha sonra aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Bura mənim can evimdir, bura mənim canməkanım...



*Mən Nuh Peyğəmbərin Dünya tufanından sonra burada yenidən həyat bina etməsinə şahidəm. İgid-ərən babalarınızın bu yerlərdə at çapıb, qılınc oynatdığı zamanların tarixiyəm. Dədə Qorqudun qopuz çalıb, söz qoşub Oğuz igidlərinə ad qoyduğu, öyüd-nəsihət verdiyi dövrlərin yaşıdıyam. Mən burada Xürrəmilərin üsyanlarını, Naxçıvanşahlığı görmüşəm. Atabəylər dövlətinin qurulmasına və intibahına, memar Əcəminin bu torpaqda ucaltdığı dəyərli memarlıq abidələrinin tikintisinə şahidlik etmişəm. Əmir Teymura qarşı 14 il müqavimət göstərmiş Əlincəqalanın, hürufiliyin, Fəzlullah Nəiminin müasiriyəm. Mən Şah İsmayılla Əlvənd Mirzənin Şərur düzündəki cənginin şahidiyəm. Nadir şahı taxtda, Şah Abbası qundaqda görmüşəm. Naxçıvan xanlığının bina edilməsini, Ağa Məhəmməd şah Qacarın bu torpağa hücumlarını görmüşəm. Araz-Türk Respublikasının qurulmasının şahidiyəm, muxtariyyət qazanmış, nəhayət, inkişaf və çiçəklənmə dövrünü yaşayan beş min yaşlı müdrik qocayam.*

Növbəti günə başlamaq üçün səbirsizlənirəm. Dan yeri sökülməmişdən sinəmdə hərəkətlənmə başlayır. Gecə ilə gündüzün qovuşuğunda işə ilk başlayan Sanitar Təmizlik İdarəsinin zəhmətkeş əməkdaşlarıdır. Bəlkə də, siz onların çoxunu tanımırsınız. Amma mən onların hər birini çox yaxşı tanıyıram. Küçə lampalarının işığında küçələrimin sükutunu birinci onlar pozur. Böyük zəhmətlə, səbirlə, əzmlə addım-addım küçələrimi təmizləyən bu zəhmətsevər insanların hər biri ilə tanışam mən. Çünki təmizliyim üçün onlara borcluyam.

Əsrlərdir ki, gündə bir neçə dəfə eşitdiyim, sakinlərimi ibadətə səsləyən azan səsi mənə bir sakitlik və dinclik bəxş edir. Ayrı-ayrı məhəllələrimdə yerləşən məscidlərdən – əsrlərə meydan oxuyan Came məscidindən, ən qədim məhəllələrimdən birində yerləşən, vaxtilə Pir Xamuşun yaşadığı yerdə inşa olunmuş Pirqamış məhəlləsinin Pirqəmiş məscidindən, köhnə məhəllələrimdən olan Sarvanlar məhəlləsindəki Sarvanlar məscidindən, yeni yaşayış evlərinin yaxınlığında inşa edilmiş Kazım Qarabəkir məscidindən ucalan azan səsləri həm də yeni günün başlanması üçün bir işarədir.

Səhərin erkən saatlarında – Günəş hələ doğulmamışdan küçələrimi bürüyən xoş bir ətir yayılır ətrafa. Bu, yeni bişirilmiş çörək ətridir. İnsanoğlunun sinəmdə məskən saldığı ilk zamanlardan bəri bu ətri mən də onlarla birlikdə sevirəm. Çünki bu, insanların burada mövcudluğunun, həyatlarını davam etdirmələrinin, buralarda həmişə məskun olduqlarının ən birinci göstəricilərindəndir. Uzun zamanlar öncə burada təndirlərdən qalxan tüstü ilə qarışıq çörəyin iyini hiss edərdim. İndi isə ayrı-ayrı küçələrimdə olan çörəkbişirmə sexlərindən alıram bu ətri. Səhərin mehi ilə yayılan bu ətir yeni günün başlanmasına, zəhmətkeş çörəkçilərin artıq işlərinin başına gəlmələrinə şahidlik edir.

Səhərin sərin mehi ilə ağaclara sığal çəkilir. İlk olaraq yaşıl parklarımda – Əcəmi seyrəngahında, "Böyük bağ"da, yolların kənarlarında yaşıl boyunbağı kimi uzanan, bəzən o boyunbağının zümrüd qaşı kimi parlayan parklardakı talatala qocaman ağacların sıx budaqları arasında özünə yuva qurmuş quşların səhəri qarşılama himni, xoş nəğmələri ilə günüm başlayır. Günəşin doğuşu ilə bu rəngarənglik bir az da artır. Ana torpağın qaranlıq dərinliklərindən mavi səmanın parlaq ənginliklərinə doğru can atan yaşıl libas geyinmiş ağacların budaqlarında quşların rəqsi başlayır.

Günəşin ilk işıqları ilə birlikdə binaların küçələrimə düşən kölgələri ağacların yaşıllığı ilə valehedici mənzərələr yaradır. Günəş üfüqdə bir az da yüksəldikcə işə, dərsə, bazar-dükana tələsən insanların danışığı, avtomobillərin səsi sükutu pozur. Bəzən anasının-atasının əlindən tutub yolun kənarı ilə gedən balaca bir uşağın aramsız sualları, bəzən öz yoldaşları ilə gedən bir qrup yeniyetmənin şən, gülüş dolu söhbətləri, bəzən qəlbini sevgi alovu bürümüş iki gəncin pıçıltısı, bəzən səhər idmanı üçün yürüşə çıxmış bir cavanın təngnəfəs səsi, bəzən düşüncəsi gündəlik qayğıları ilə məşğul olan bir insanın sükutu, bəzən isə səhərin ilıq Günəş şəfəqlərində aram-aram addımlayan yaşlı bir insanın öz-özü ilə, bəlkə də, keçmişlə olan söhbətinin səsi ilə davam edirəm günə. Bu səslər məni yeni günün başlanğıcına, yeni səhərə səsləyir. Bu səslər həyatın normal axışının səsidir. Min illərdir ki, mən bu səslərlə yaşayıram. Əslində, məni yaşadan elə bu səslərdir.

Nuh Peyğəmbərin özünün də vaxtilə duz çıxardığı mədənlər mənim lap yaxınlığımdadır. Günəşin doğuşu ilə torpağın dərinliklərində yatan duz qatlarından torpağın üzünə çıxmağa macal tapmış duz zərrələrinin ilk şəfəqlərlə zərrin parıltısı başlayır. Bu mədənlərdə hələ də min illərin izləri, yadigarları qalır. Torpağımın altında övladlarımın hələ də görmədiyi, bilmədiyi çox dəyərli xəzinələr, abidələr var. Yəqin ki, nə zamansa, onlar sizə də bəlli olacaq. Mənim qurucumdan, sizin isə Nuh babanızdan qalan bu izlər mənim nə qədər yaşlı olduğumu göstərir. Amma mən nə qədər yaşlı olsam da, o qədər də gəncəm və güclüyəm. Bu siz nəvələrin sayəsindədir.

Bir zamanlar Atabəylər memarlıq ansamblına daxil olan, indi isə Əcəmi seyrəngahı – vaxtilə "Sabir bağı" adlanan yerdə əzəmətlə ucalan Möminə xatın türbəsi mənim ən dəyərli tarixi incilərimdəndir. Mənim də aid olduğum Şərqdə qadına verilən dəyərin, hörmət və sevginin ən gözəl, ən dəyərli nümunəsidir bu abidə. Dünyanın dörd bir yanından gələn qonaqlar indi də bu incə naxışlı böyük ustalıq əsərini heyranlıqla seyr edirlər. Qadın incəliyinin, sənətkar ustalığının, Şərq memarlığının ən gözəl elementlərini özündə birləşdirən Möminə xatın saysız sevgi hekayəsinin, hesabsız el şənliyinin şahididir. Ən hündür məkanlarımdan birində yerləşməklə Araz vadisinə tamaşa edir. Özündən xeyli gənc olan qarşısındakı Xan sarayı ilə söhbətləri, tarixin ruzigarına qarşı sinə gərmələri, şahidlik etdikləri tarixi hadisələrlə bəhsləşirlər hərdən. Ətəyimdən axan Arazla mən isə bu bəhsə təbəssümlə tamaşa edirik. Axı biz onların yaranışının şahidiyik. Araz vadisini seyrə dalanda mən özüm də heyrətlənirəm. Ötən əsrlər ərzində mən nə qədər də böyümüş, inkişaf etmiş və dəyişilmişəm...

Mərkəzi küçələrimdən birinin yaxınlığında, evlərin sıx yerləşdiyi yerdə dam örtüklərindən hündürdə yerləşən silindrvari bir tikili görə bilərsiniz. Bu tikili memar Əcəminin Möminə xatınla bərabər, burada tikdiyi abidələrdən biridir. Burada yaşayan insanlar ona, bəzən "Ata-baba günbəzi" desələr də, bu abidə vaxtilə burada yaşamış nüfuzlu dövlət və din xadimlərindən olan Yusif Küseyir oğlunun xatirəsinə həsr olunub və onun adını daşıyır. Bu abidə ilə yaxından tanışlıqda siz bir daha əmin olacaqsınız ki, mənim nə qədər istedadlı, sənətkar övladlarım olub. Sizin qoruyub saxladığınız bu abidələr babalarınızın bu torpaqlarda yaratdığı çox dəyərli incilərdir.

Günəş göy qübbəsinin ortasında dayananda artıq burada havanın istiliyi də xeyli artır. Bu saatlarda parklarımdakı ağacların sərinliyində oturub söhbət edən insanların evlərinə, yaxud hansısa kafeyə nahara getdiklərini görə bilərsiniz. Yaşıllaşdırma Xidmətinin əməkdaşları isə Günəşin yandırıcı şüaları altında yaşıllıqlara qayğı göstərir, suyunu verir, qolbudaqlarını təmizləyirlər.

Yolunuz buralara düşsə, mənə uzanan və ya məndən ayrılan yolların kənarındakı yaşıllığı da görə bilərsiniz. Məni yaxşı tanıyanlar bilir ki, iqlimim quraq, isti və çox sərtdir. Torpağımın altı isə duzla zəngindir. Ona görə də təbii halda bu yaşıllıqların ərsəyə gəlməsi çox çətindir. Gördüyünüz bu yaşıllıqların hamısı insan əməyinin bəhrəsidir. Bu torpağı sevən insanların, Vətənə bağlı olan insanların, onu daha gözəl görmək istəyən insanların cəfakeş əməyinin nəticəsidir. Bu füsunkar gözəlliyimi onlara borcluyam.

Geniş prospekt və küçələrimlə addımlasanız, bir-birindən yaraşıqlı, Şərq və Qərb memarlıq ənənələrini özündə ehtiva edən binalarımı, yeni tikilən binalarla yanaşı, ikinci həyat verilmiş qədim tikililəri də görə bilərsiniz. Həmin binalar mənim simama başqa bir gözəllik qatır. Rəngarəng yaşayış binalarına, müasir ofis və idarələrə, qədim memarlıq abidələrinə bəxş etdiyi gözəllik üçün memarlara borcluyam. Onlar mənim binalarımı, park və xiyabanlarımı yenidən qurub yaradır, yeni görkəm bəxş edirlər.

Mənim ən uca məkanımda vətənsevərlərin əsəri olan bir meydan var. Qərb girişimdən mənə gələn qonaqları birinci o qarşılayır; uğrunda can verilən, can alınan üçrəngli Azərbaycan bayrağının vüqarla dalğalandığı Dövlət Bayrağı Meydanı. Bura mənim şərəf və qürur yerlərimdən biridir. Çünki bura azadlığın, müstəqilliyin, inkişafın, müasirliyin, Vətən sevgisinin, şanlı tarixin yaşadığı, yaşadıldığı zamanın simvoludur. Buradan baxanda məni bütövlüklə görə bilərsiniz; bütün Araz vadisini, bərəkətli zəmiləri, geniş yolları, yaraşıqlı binaları, gözünü vüqarla mənə dikmiş Haçadağı, Nəhəcir dağını, Əshabi-Kəhf dağını, hətta lap uzaqlarda yerləşən Ağrı dağını, Savalanı.

Sinəm üstündə böyümüş igid oğullarım, qoynumda uyuyan şəhidlərim var mənim. Bu torpaq üçün hər şeylərindən keçməyi gözə alan, özünü bu torpağa qurban verməyə hazır olan və qurban verib, hər şeyindən keçən igidlərim. İndi bu zirvədən baxanda 90-cı illərin ən ağır zamanlarında Vətən üçün döyüşmüş, 44 günlük Vətən müharibəsində öz canları, qanları bahasına Azərbaycana Qələbəni bəxş edən igid oğullarımı xatırlayıram, onları sevgiylə yad edirəm. Yaşıldonlu, mavigözlü, alyanaqlı bayrağa bürünmüş şəhidlərimi öz qoynuma böyük şərəf və iftixarla aldım. Onlar əbədiyyən mənə əmanətdir. Çünki onlar məni qorudu, başımı uca etdi. Bayraq Meydanında qürurla dalğalanan bu üçrəngli bayraq igid oğulların Vətən əmanəti, şəhidlərin al qanları, Vətənin isə igidlərinə olan əbədi minnətdarlıq borcudur...

Bu şanlı tariximi yaşadan muzeylərim var bir də. Tariximə aid on minlərlə eksponatı özündə qoruyub saxlayan ən qədim muzeyim Dövlət Tarix Muzeyidir. İlkin insan məskənlərimdən başlanmış bugünkü günədək hər bir əlamətdar tarixi hadisəni özündə yaşadır bu muzey. Yolunuzu məndən salanda tarixi yaşadan söz sənətini qoruyub saxlayan Ədəbiyyat Muzeyini, toxuculuq mədəniyyətinin ən zərif nümunələrinin mühafizə olunduğu Dövlət Xalça Muzeyini, şanlı dövlətçilik tariximizin ayrı-ayrı səhifələrini əks etdirən Dövlət Bayrağı Muzeyini, Nuh Peyğəmbərdən yadigar qalan duz mədənlərinin eksponatlarını yaşadan Duz Muzeyini, tarixin daş yaddaşını özündə saxlayan Açıq Səma Altında Muzeyi, Naxçıvan xanlarının tarixini, şəcərəsini qoruyub saxlayan Xan sarayını, bu torpağın dünya mədəniyyətinə və ədəbiyyatına bəxş etdiyi Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin ev-muzeylərini, İstiqlal küçəsində ağ, Günəş kimi parlayan Hüseyn Cavid məqbərəsini, realist rəssamlıq məktəbinin banisi Bəhruz Kəngərli Muzeyini və Azərbaycanın müasir dövlətçilik tarixində möhtəşəm izlər qoymuş, məni qorumuş, Azərbaycanı öz müstəqilliyinə qovuşdurmuş ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə aid eksponatların qorunduğu Heydər Əliyev Muzeyini ziyarət etməyinizi tövsiyə edərdim. Bu muzeyləri gəzdikcə məni daha yaxşı tanıyacaq, məni tanıdıqca daha çox sevəcəksiniz.

Yolunuzu məndən salanda Naxçıvanqalanı mütləq ziyarət edin. Min ildən çox tarixi olan bu qala bu dəfə qonaqları qəbul edib dostlarımıza öz möhtəşəmliyindən söz açır. Qalanın yanında isə bu torpaqların ən böyük və birinci sakini, bəşəriyyətin ikinci atası Nuh Peyğəmbərin məqbərəsi ucalır. Məhz buna görə, bəzən məni "Nuh yurdu" da adlandırırlar. Bu abidəni ziyarət edib bu torpaqların müqəddəsliyini və mənim qədimliyimi bir daha gözlərinizlə görün. Tarixin bütün dövrlərində olduğu kimi, bu gün də Nuh Peyğəmbərin bütün bəşəriyyəti birləşdirən vəhdət fəlsəfəsi məndə yaşayır.

Nuh Peyğəmbərin məqbərəsindən bir az aşağıda isə İmamzadə yerləşir. "Naxçıvan imamzadəsi" adı ilə tanınan bu ziyarətgah XVIII əsrə aid olan tarix-memarlıq abidəsidir. Bu memarlıq kompleksi Səfəvi memarlığının və yerli Naxçıvan-Marağa memarlıq məktəbinin xüsusiyyətlərini özündə birləşdirir. Bu məqbərədə imam Rzanın oğlunun qəbri yerləşir. İmamzadədən bir az aralıda – geniş və rahat yolun qarşı tərəfində isə siz daha bir tarixi abidəni – Buzxananı görə bilərsiniz. Naxçıvan buzxanası Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə, yəni XII-XIV əsrlərdə tikilib.

Ətəyimdən axan Arazın üzərində Günəş qüruba endikcə sinəmdə başqa bir mənzərə canlanır. Şəfəqdəki canlanmadan daha fərqli bir canlanma olur qürubda. Avtomobil və insan səsləri bir az da artır. Xəfif əsən meh və iş gününün başa çatması insanları küçəyə çıxmağa səsləyir. Hava qaraldıqca binaların pəncərələrindən, fasad işıqlandırmasından küçəyə düşən al-əlvan işıqlar küçə lampalarının işığına, avtomobillərin işıq selinə qarışır.

İnsanlar istirahət, əyləncə məkanlarına tələsirlər. Bu mənzərəni izləmək mənim üçün, bir bilsəniz, necə xoşdur. "Əyləncə adası"na, "Sahil" parkına, "Görüş yeri"nə, Heydər Əliyev Uşaq-Gənclər İstirahət Parkına və ətrafımda olan, yaşıllıqlara bürünən neçə-neçə istirahət məkanlarına tələsənləri, gününü xoş əhvalla bitirmək istəyən, ətrafında olanlara sevgi və dostluqlarını bəxş edən insanları gördükcə mənim də sabaha olan ümidim artır, yaşama sevincim çoxalır. Axı mən onlarla birlikdə varam...

Gecənin gec saatlarına doğru irəlilədikcə günü başa vuran insanlar evlərinə doğru çəkilir, avtomobillər azalır. Yenidən sükuta qərq oluram. Binaların pəncərələrindən gələn işıqlar da yavaş-yavaş kəsilir. Hər kəs yuxuya gedir. Şəhərin işıqları ilə birgə mən də yuxuya gedirəm. Yeni bir günə yenidən başlamaq üçün...

***

Mən Şərqlə Qərbin birləşdiyi Böyük İpək Yolu üzərində yerləşirəm, bir çox mənbələrdə "Şərqin qapısı" adlandırılıram. Tarixboyu müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu yer kimi tanınıb, özümdə həmin mədəniyyətlərin harmoniyasını əks etdirərək multikultural ənənələrimə görə seçilmişəm. Mən bu qədimliyimlə yanaşı, həm də çox müasirəm, beynəlxalq tədbirlərin ev sahibiyəm. Gənclər arasında şahmat üzrə dünya çempionatının, Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının, "Naxçıvan Open" beynəlxalq şahmat festivallarının, Naxçıvanda Avropa günlərinin, beynəlxalq idman yarışlarının ev sahibiyəm.

Mən paytaxtam. Naxçıvanşahlığın, Atabəylərin, Araz-Türk Cümhuriyyətinin, müasir Naxçıvan Muxtar Respublikasının paytaxtı, İslam Mədəniyyətinin paytaxtı, Azərbaycanın Gənclər Paytaxtı.

Min illərdir ki, sinəmdə həyat qaynayır mənim. Ən çətin günlərdən, ən ağır dövranlardan keçib bugünkü zamana – ağ günlərimə qovuşmuşam. Zəhmətkeş, vətənpərvər, Vətənini sevən insanlara borcluyam bugünkü inkişafım, gözəlliyim üçün.

Qurucu Rəhbərin sayəsində mən, demək olar ki, qısa müddətdə yenidən quruldum. Hazırkı mən Şərq memarlığı zəminində ucaldılmış Avropa şəhəriyəm. Xalqın qəlbində özünə yer qazanmış, sevilmiş, parlaq uğurlara imza atmış insanlar həmişə xalqın qəlbində yaşayır və şübhəsiz ki, gələcəkdə də yaşayacaq! Mənim müasir dövrdəki inkişaf salnaməmi yaradanlar heç bir tarixə bənzəməyən, özünəməxsus, sonsuz fikir və düşüncə sahibi olan tarixdir. Yaşadığınız indiki dövr qədim Naxçıvanın yeni dövr tarixinin çoxcildlik kitabıdır. İnkişaf və yeniləşmə istiqamətində keçilmiş şərəfli yolun böyük dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə Azərbaycanın bu qədim və həmişəcavan diyarının – mənim sabahkı üfüqlərimə də gur işıq salır.

Mən Naxçıvan şəhəriyəm. Yenə də Şərqlə Qərbin qovşağında, qədim və həmişəcavan Naxçıvan. Şair övladım Elxan Yurdoğlu bütün övladlarımın dilindən deyir ki:

*Canım yansa, bir CAN deyər, ağrılarım candan çıxar,*
*Bura mənim can evimdir, bura mənim canməkanım.*
*Ürək əsər, ruh titrəyər, qəlb tövşüyər, can darıxar,*
*Bircə günlük səndən ayrı düşsəm əgər, Naxçıvanım!*

**Məmməd BABAYEV**

*Dövlət proqramı icra olunur*

## Uşaqların müayinə və müalicəsi üçün hərtərəfli şəraitin yaradılması diqqət mərkəzindədir

*Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini uşaqların sağlamlıqlarının qorunması və hüquqlarının təmin edilməsi təşkil edir. Çünki uşaqlara göstərilən qayğı cəmiyyətin gələcək varlığının möhkəm sütunlar üzərində inşa edilməsi deməkdir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi:* ***"Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir".***

Naxçıvan Muxtar Respublikasında da uşaqlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuş, onlara xidmət edən səhiyyə, təhsil, mədəniyyət və digər müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi, yeni infrastruktur obyektlərinin tikilib istifadəyə verilməsi istiqamətində tədbirlər geniş vüsət almışdır. Bununla yanaşı, tibb müəssisələrində ixtisaslı kadr hazırlığının təşkili, məktəb və məktəbdənkənar təhsil müəssisələrində müasir təlim metodlarının tətbiqi kimi bir çox aspektlər üzrə həyata keçirilən layihələr uşaqların sağlam və yüksək intellektual potensiala malik bir mühitdə böyüməsi üçün əlverişli şərait yaradır. Bu istiqamətlərdə təsdiq edilən plan və proqramların vaxtında icrası yeni nailiyyətlərin qazanılmasına səbəb olur.

Uşaq sağlamlığının qorunması məqsədilə görülən işlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın önəmli rolu vardır. Proqramda müəyyənləşdirilən tədbirlərin həyata keçirilməsi 2021-ci ilin ikinci rübündə də davam etdirilmiş, aprelin 9-da Ordubad Rayon Uşaq Xəstəxanası istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ordubad rayonunda da uşaq xəstəxanasının yaradılmasına ehtiyac var idi. Müvafiq Sərəncamdan sonra burada lazımi işlər həyata keçirilmiş və bu gün kollektivin istifadəsinə 54 adda müxtəlif təyinatlı tibbi avadanlıqlarla təmin olunmuş, stasionar və poliklinika şöbələrindən ibarət olan müasir uşaq xəstəxanası verilir. Səhiyyə müəssisəsində hərtərəfli şərait yaradılmışdır. Bu da kollektivin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsinə imkan verəcəkdir. Qarşıda duran əsas vəzifə rayonda bütün uşaqların qeydiyyata alınması, Dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi və uşaqların sağlamlığının diqqətdə saxlanılmasıdır. Ona görə ki, uşaqlar gələcəyimizdir. Onların sağlam böyüməsi, yaxşı təhsil alması isə ölkənin gələcəyinə xidmət edir".***





Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan səhiyyə ocağında 59 nəfərlik tibbi heyətin çalışması üçün geniş şərait yaradılmış, xəstəxanaya "FİAT" markalı təcili tibbi yardım avtomobili verilmişdir.

Dövlət proqramında nəzərdə tutulan təşkilatı tədbirlərin icrası ikinci rübdə diqqət mərkəzində olmuşdur. Aprel ayından başlayaraq 45 min 482 uşağın dərindən tibbi müayinəsi aparılmış, onlardan 4 min 97-si dispanser nəzarətə götürülmüş, 387 uşağın ixtisaslaşmış tibb müəssisələrində müayinə və müalicəsi həyata keçirilmişdir. Bu dövrdə 1052 uşaq üçün elektron kart sifariş olunmuş, doğulan uşaqlar haqqındakı tibbi məlumatlar elektron kartlara qeyd edilmişdir.

Naxçıvanda sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər onların cəmiyyətə daha sağlam inteqrasiya olunması baxımından xüsusi önəm kəsb edir. Bu uşaqlar üçün müxtəlif sosial xidmətlərin təşkili və tibbi bərpa prosedurlarının tətbiqi onların xüsusi qayğı ilə əhatə olunmasının mühüm təzahürlərindəndir. Proqramın icrasına uyğun olaraq ikinci rübdə 32 sağlamlıq imkanı məhdud uşağa bərpa müalicəsinin təşkili üçün Naxçıvan Uşaq Bərpa Mərkəzinə göndəriş verilmişdir. Çətin həyat şəraitində olan uşaqların sosial xidmət müəssisələrinə yönləndirilməsi və müalicəsinin təşkili istiqamətində işlər davam etdirilmiş, iyun ayında 1 uşaq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün Sosial Xidmət Müəssisəsinə yerləşdirilmişdir. Həmçinin bu dövrdə Naxçıvan Regional İnformasiya Mərkəzində 24 sağlamlıq imkanları məhdud uşaqla reabilitasiya tədbirləri aparılmış, defektoloji bölmənin Şərur və Ordubad rayon filiallarının hər birinə 2 uşaq cəlb olunmuşdur. İkinci rübdə 13 sağlamlıq imkanları məhdud uşaq texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin edilmiş, 19 uşağa protez-ortopedik xidmətlər göstərilmişdir.

Proqramın icrası istiqamətində aparılan müayinələr uşaqlarda erkən yaş dövrlərinə aid xəstəliklərin müəyyənləşdirilməsi və vaxtında müalicəsi, eləcə də yeniyetmələrin sağlam psixologiyaya malik bir fərd kimi yetişməsində xüsusi əhəmiyyət kəsb edir. Ümumtəhsil məktəblərində təşkil edilən müayinələr zamanı uşaqlara gigiyenik tələblərin izah olunması onların erkən yaşlardan düzgün vərdişlərə yiyələnməsinə və sağlam həyat tərzinə malik olmasına imkan yaradır. Aprel-iyun aylarında 751 uşaqda psixonevroloji müayinələr aparılmışdır. Onlardan 128-də nevroloji simptomlar aşkar edilmiş və ixtisaslı müayinəyə yönləndirilməsi tövsiyə olunmuşdur. Həmçinin bu dövrdə qurd invaziyasına görə 1340 uşaqda müayinələr aparılmış, 239 uşaqda bu xəstəliyin əlamətləri müəyyən edilmişdir. Həmin uşaqlara qurd əleyhinə dərman preparatları verilmiş və şəxsi gigiyena qaydalarına əməl edilməsinə dair maarifləndirici söhbət aparılmışdır.

Dövlət proqramında nəzərdə tutulan maarifləndirmə tədbirlərinin mütərəqqi əhəmiyyəti vardır. Bu istiqamətdə görülən işlər uşaqların məktəbli yaşlarından müəyyən xəstəliklərin təhlükəliliyini şüurlu surətdə dərk etməsi, valideynlərin isə həmin xəstəliklərin erkən simptomları barədə biliklərə yiyələnməsi və müvafiq tibb müəssisələrinə vaxtında müraciət olunması baxımından həyati rol oynayır. İkinci rübdə Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəblərində təşkil edilən tibbi müayinələr zamanı dispanserizasiyası aparılan xəstəliklər və onların təhlükəliliyi barədə 12 min 873 şagirdin maarifləndirilməsi təmin olunmuşdur. Həmçinin bu dövrdə Şərur, Kəngərli və Babək rayonları üzrə, ümumilikdə, 7 ümumtəhsil müəssisəsində müxtəlif xəstəliklərin risk amillərinə



dair maarifləndirmə işi aparılmışdır.

Proqramın icrası məqsədilə müayinələr aparılarkən uşaqlar və valideynlər arasında "Uşaqların icbari dispanserizasiyası sağlamlığın qorunmasında əsas şərtdir" mövzusunda 300 nüsxə buklet paylanmışdır.

**"Şərq qapısı"**

## Naxçıvanlı steamçılar "Yay məktəbi"ndə



*Yaşadığımız bu digital dünyada gündən-günə bizə yeni texnologiyalar təqdim olunur, faydalı fikirlər ortaya çıxır. Gündəlik həyatımızı daha da asanlaşdırıb sürətləndirmək üçün bir-birindən fərqli innovativ layihələrə zərurət yaranır. Yaxın keçmişə nəzər salsaq, hər birimiz dünyamızın son ildə texnologiya və sənaye sahələrində artıq tarixə dönmüş əvəzolunmaz inkişafını asanlıqla görə bilərik. Qəbul etməliyik ki, bu inkişafa nail olmaq daha da irəliyə gedə bilmək üçün mühəndis, proqramçı dizaynerlərin sayının artırılması olduqca vacibdir. Bu səbəbdən də dünya təhsilində araşdırmalar göstərir ki, gələcəkdə innovativ inkişaf üçün ehtiyac duyacağımız bu ixtisas sahələrinə olan tələbatı qarşılamaq məqsədilə yeni təhsil metodlarından istifadə vacib amillərdəndir. Bu, Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyatın birgə inteqrasiya olunmuş tətbiqi yeni təhsil metodu olan STEAM-ı ortaya çıxarıb.*

Ölkəmizdə yenicə tətbiq olunmağa başlayan STEAM təhsil metodu müəllim və şagirdlərə fərqli baxış bucağı qazandırmaqla yanaşı, dərslərində daim yenilik axtarışında olmağı, nəzəriyyədən qismən uzaqlaşıb praktik biliklərə yiyələnməyi öyrədir. Onlara araşdırma, analiz bacarıqlarını inkişaf etdirməyi və eyni zamanda digər dərslərində qazandıqları fənn biliklərini səmərəli və yararlı şəkildə ortaya qoymağı mənimsədir.

2020-2021-ci tədris ilindən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində STEAM təhsil metodunun tətbiqinə start verilib. Qısa müddət keçməyinə baxmayaraq, 30-dan çox ümumtəhsil müəssisəsində modern tələblərə cavab verən STEAM kabinələri yaradılıb, həmin kabinələr ən müasir texnoloji avadanlıq və qurğularla təchiz olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixdə "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən bütün ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Şagirdlərin asudə vaxtının səmərəli təşkili, innovativ təhsil metodu olan STEAM üzrə bilik və bacarıqlar əldə etməsi məqsədilə təşkil olunan "STEAM yay məktəbi" də bu istiqamətdə görülən işlərin davamıdır.

Məlumdur ki, hər bir uğur hədəfi düzgün seçməkdən başlayır. Çünki bunun üçün mütləq hədəfə ehtiyacımız var. Muxtar respublikamızda ilk dəfə təşkil olunan "STEAM yay məktəbi" şagirdlərin hədəflərini düzgün istiqamətləndirmək baxımından mühüm əhəmiyyətə malikdir.

Füsunkar təbiət mənzərəsi, əsrarəngiz gözəlliyi ilə yerli və xarici qonaqların diqqətini çəkən Ağbulaq İstirahət Mərkəzi bu dəfə "STEAM yay məktəbi"nin şagirdlərini qonaq edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Gənclər Fondu və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə ilk dəfə təşkil olunan "STEAM yay məktəbi" uğurla reallaşdırılan layihələrdən biri kimi yaddaqalan oldu. 4 günlük "Yay məktəbi"ndə muxtar respublikamızın ümumtəhsil məktəblərindən bacarıqları ilə fərqlənən 60 şagird iştirak edib. Proqrama uyğun olaraq günə səhər idmanı ilə başlayan şagirdlər səhər yeməyindən sonra təlimçi müəllimlərin apardığı dərs prosesində iştirak ediblər. Tədris mövzularına müvafiq olaraq birinci gün STEAM metodologiyaları, ikinci gün 3D modelləşdirmə və 3D çap, üçüncü gün lego modellərindən robotların hazırlanması, elektrik mühəndisliyi, sonuncu gün isə layihələrin hazırlanması proqramlaşdırma modulu, mikrobit platforması və mühəndislik dizayn dərsləri təşkil edilib. Şagirdlər "Yay məktəbi" vasitəsilə STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları kimi istiqamətlərdə biliklərini daha da genişləndiriblər.

"STEAM yay məktəbi" uşaqların inkişafına, dünyagörüşlərinin, intellektlərinin, ünsiyyət bacarıqlarının artırılmasına, sosiallaşmalarına yüksək təsir göstərərək, onların yeni dərs ilinə daha da həvəslə başlamaları üçün əhəmiyyətli stimuldur. "Yay məktəbi"ni şagirdlər üçün daha yaddaqalan etmək məqsədilə təşkilatçılar tərəfindən intellektual oyunlar və əyləncəli proqramlar həyata keçirilib. İstirahət vaxtlarında şagirdlər müxtəlif idman oyunlarında iştirak edərək sənədli filmlərin nümayişini maraqla qarşılayıblar. Onlar həyatlarında fərqli bir mühitlə qarşılaşıb, dostluqlar qurub, qrup şəklində bir-birlərinin bilik və bacarıqlarından faydalanmağı öyrənib, iş bölgüsü aparmağın səmərəli olduğunu mənimsəyiblər. Biz də "STEAM yay məktəbi" başa çatdıqdan sonra iştirakçılardan bir neçəsi ilə görüşüb təəssüratlarını öyrəndik.

*Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Kamal Qafarov:*



– Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "STEAM yay məktəbi"ndə iştirak etmək məni çox sevindirdi. Asudə vaxtlarımızı həm öyrənərək, həm də əyləncəli oyunlarla dəyərləndirdik. Təlimçi-müəllimlərin köməyi ilə yeni STEAM metodologiyasını və yeni texnologiyalarla işləməyi öyrəndik. Bu metodun mənim dərslərimə çox faydası olacağını düşünürəm. Gələcəkdə məqsədim dizayner olmaqdır. Və "STEAM yay məktəbi"ndə dizayner olmağımın vacibliyini gördüm. Yeni dərs ilində STEAM dərslərində bu sahəyə olan marağımın mənə çox kömək edəcəyinə inanıram.

*Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Şahpəri Cəfərli:*



– "STEAM yay məktəbi"nin ikinci mərhələsində iştirak etdim. Düşünürəm ki, burada qrup şəklində öyrəndiyimiz biliklər vasitəsilə gələcək həyatımızda istədiyimiz peşəyə daha asanlıqla yiyələnə bilərik. Bu "Yay məktəbi", sadəcə, dərslərlə yox, həm də əyləncəli oyunlarla yadda qaldı. Təlimlərimizdə biz STEAM düşüncəsini mənimsəməklə yanaşı, bu düşüncə formasının fərdi inkişafımıza necə böyük köməyi olacağını anladıq. Yeni dərs ilini səbirsizliklə gözləyirəm. Çünki burada öyrəndiklərimizi məktəbdə də tətbiq edəcəyik.

*Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Bəhman Muradov:*



– "STEAM yay məktəbi" mənim üçün ailəmdən ilk dəfə ayrılmağımla yaddaqalan oldu. Darıxacağımı düşünürdüm. Lakin ilk gündən təlimçi-müəllimlərin bizə olan səmimi münasibəti və qazandığım yeni dostlar mənə bu fikri unutdurdu. Burada biz şagirdlərlə birgə robot hazırladıq və onları hərəkətə gətirdik. "Yay məktəbi" vasitəsilə ilkin proqramlaşdırma qaydalarını öyrəndik. Filmlərdə gördüyüm robotları yaxın gələcəkdə hazırlaya biləcəyimə inanıram.

*Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi Fidan Hümbətova:*



– İlk dəfə "STEAM yay məktəbi"nə seçildiyimi öyrənəndə çox sevindim. STEAM dərsləri haqqında ilkin məlumatım var idi. Bu biliklərimi daha da genişləndirmək arzusunda idim. Mənim bu təlimlərdə ən çox sevdiyim sahə 3D printerlərlə işləmək idi. Bu sahədə bacarığımın olduğuna inanıram. Dostlarımla birgə rəqs edən robot hazırladıq və onun etdiyi hərəkətlərə çox əyləndik. Növbəti ildə təşkil olunacaq "STEAM yay məktəbi"nə seçilmək üçün əlimdən gələni edəcəyəm.

*İndiyə qədər çox çətin görünsə də, artıq bu gün STEAM təhsil metodu sahəsində şagirdlərimizin gələcəyin dünya nəhəngi olan NASA, AMAZON GOOGLE və digər şirkətlərin layihələrində aparıcı şəxs olmaları əlçatandır. İnanırıq ki, gələcəyimiz olan steamçılar ölkəmizin texnologiya sahəsində inkişafına nail olmaq və bu qazandıqları uğurlar ilə dünyanın qabaqcıl ölkələri sırasına qoşulmaq üçün öz töhfələrini verəcəkdir.*

**Günel MUSTAFABƏYLİ**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasının redaktoru***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Dəmiri isti-isti döyəndə...

***Dünya yaranandan bəri insan övladı əvvəlcə məişətdə daş, ağac əmək alətlərindən istifadə edibsə, sonralar bütün sahələrdə intibahın baş verməsi, əkinçiliyin, maldarlığın, sənətkarlığın, ticarətin inkişafı tuncdan, gildən əşyaların hazırlanmasına səbəb olub. Lakin həmin əmək alətlərinin dayanıqlığının azlığı, tez sıradan çıxması daha bərk materiala ehtiyacı yaradıb və nəticədə, yüksək dözümlülüyü ilə seçilən dəmir insan həyatına sirayət edib. Qolunun gücü ilə dəmiri əyərək müxtəlif formalara salan, bununla da kəndlinin əl əməyini xeyli yüngülləşdirən insanlar isə el arasında "dəmirçi" adlandırılıb. Antik dövrdən etibarən dəmirçilər dəmirdən kənd təsərrüfatı işlərində geniş istifadə olunan xış, kotan, balta, bel, kürək, dəhrə, dəryaz, oraq, çəkic, kərki, bıçaq və digər əşyalar düzəldiblər.***



Ölkəmizdə zəngin filiz yataqlarının mövcud olması burada sənətkarlığın digər sahələri ilə yanaşı, dəmirçiliyin də inkişafına geniş imkanlar yaradıb, bu sahədə dövrünün tanınmış sənətkarları yetişib. Xalqımız tərəfindən insan övladının əl əməyi hər zaman üstün tutulub, dəmirçi nağıl və dastanlarımızda baş qəhrəmanlara öz xeyirxah ideyalarını gerçəkləşdirməkdə yardımçı olan müsbət obraz kimi təsvir edilib. Orta məktəb illərindən sevə-sevə oxuduğumuz "Koroğlu" dastanında, "Padşah və dəmirçi", "Şəngül, Şüngül, Məngül" nağıllarında və digər şifahi xalq ədəbiyyatı nümunələrində ömrünü-gününü bu ağır zəhmət tələb edən işə bağlamış insanların şücaətindən, qəhrəmanlığından, səxavətindən, dürüstlüyündən söhbət açılır. Milli kimliyimizin açarı sayılan "Kitabi-Dədə Qorqud" dastanında da qədim Oğuz-türk tayfaları arasında bütün sənətkarlıq sahələri ilə yanaşı, dəmirçiliyin də geniş yayılması qeyd olunur. Günümüzdə də el arasında tez-tez söylənilən "Dəmiri isti-isti döyərlər", "Dəmiri döyən dəmirçi olar", "Dəmir döyülə - döyülə polad olur", "Dəmir nəmdən, insan qəmdən çürüyər", "Dəmir sürtüldükcə parıldar", "Dəmiri kürədən dəmir çıxardar" və digər deyimlər, eləcə də bir insan haqqında söhbət düşərkən "Dəmir iradəli adamdır" deyilməsi bu məfhumun xalqımızın həyatındakı önəmindən xəbər verir.

Günümüzdə yeni texnologiyaların bütün sahələrə geniş şəkildə sirayət etməsinə baxmayaraq, dəmirçiliklə məşğul olanlar, bu dədə-baba sənətini yaşadanlar hələ də vardır. Onlardan biri – Şərur rayonunun Zeyvə kəndində yaşayan Səməd Rəsulovla dəmirçilik sənətinin dünəni və bu günü barədə söhbət etmək üçün işlədiyi emalatxanaya üz tuturam. İstehsal sahəsi səliqəli görünüşü və burada hazırlanan dəmirçilik məhsullarının üzərindəki incə əl işi ilə ilk baxışdan diqqətimi çəkir. Usta dəmiri kürədə möhkəmcə qızdırır, daha sonra çıxarıb zindan üzərində döyərək hazırlayır, böyük zəhmət çəkdiyini isə alnından süzülən tər damcıları təsdiqləyir. İş prosesinin çətinliyinə, ağırlığına baxmayaraq, sənətə həvəslə bağlanan bu insanın bir neçə dəqiqənin içərisində adi dəmir parçasını lazımlı əşyaya çevirməsini heyranlıqla izləyirəm.

Ustaya yaxınlaşır, salam verib, hal-əhval tuturam. Öyrənirəm ki, yaşı 50-ni haqlamış Səməd kişi dünyaya göz açıb özünü dərk edəndən gününün çoxunu atasının dəmirçi dükanında keçirib, necə deyərlər, kiçik yaşlarından görüb-götürüb. Atası, dövrünün tanınmış dəmirçilərindən olan Yusif kişi 75 yaşınadək dəmiri isti-isti döyüb, hazırladığı əl işlərinin üzərinə müxtəlif dekorativ naxışlar da vuraraq ecazkar sənət nümunələri yaradıb. Təsadüfi deyil ki, bu gün də onu təkcə Zeyvədə deyil, qonşu kəndlərdə də işinin sərrafı olan sənətkar kimi xatırlayırlar. Zaman keçdikcə Səməd usta da atasından qalma bu sənətə yiyələnir və Yusif kişi dünyasını dəyişdikdən sonra emalatxanada təkbaşına işləməli olur. İşində püxtələşib, özünü yaxşı tərəfdən tanıtdıqca sifarişləri də xeyli çoxalır. Dəmirçixanada keçirdiyi ötən aylar-illər Səməd kişinin saçlarının qarasını aparsa da, həyatına gətirdiyi xoşbəxt anları da az olmayıb. Dərin məhəbbətlə bağlandığı bu peşə sayəsində həm el-obanın rəğbətini qazanıb, həm də övladlarını yaxşı şəraitdə böyüdüb, onları təhsilli, savadlı gənclər kimi yetişdirə bilib.

Səməd usta söhbət zamanı dəmirçilik sənətinin dünənindən bu gününədək uzanan yola qısa nəzər salaraq deyir ki, qədim dövrlərdə digər sənət dükanları kimi, dəmirçixanalar da, əsasən, bazar və ya karvansaralarda yerləşib. Həmin yerlər bir qayda olaraq həm istehsal emalatxanası, həm də satış dükanı kimi fəaliyyət göstərib. Dəmirçixanalarda kustar üsulla balta, bel, kürək, dəhrə, dəryaz, oraq, çəkic, kərki, bıçaq və sair məişət əşyaları hazırlanırdı ki, onlar həm uzunömürlü, həm də ucuz olurdu. Sonralar dəmirçilər təcrübə nəticəsində metalların xassələrini dərindən öyrənməklə istehsal texnologiyasını təkmilləşdirərək daha mükəmməl əmək alətləri hazırlayıblar. Mən də 1950-ci ildə qurulan, atamdan yadigar qalan bu emalatxananı zaman keçdikcə təmir edib, avadanlıqları yeniləyərək işimi xeyli asanlaşdırmışam. Ölkəmiz müstəqillik qazandıqdan sonra yaradılan əlverişli şəraiti, eləcə də sifarişlərin çox olmasını nəzərə alıb Şərur rayonunun mərkəzində təsərrüfat mallarının satış mağazasını açdım. İndi burada istehsal etdiyim dəmirçilik məhsullarını həmin mağazada sataraq həm öz yaşayış şəraitimi yaxşılaşdırır, həm də rayonumuzun sakinlərini keyfiyyətli alətlərlə təmin etməyə çalışıram.

Xammalı Türkiyə Respublikası və Bakı şəhərindən gətirdiyini bildirən Səməd usta xalis dəmirin alınması prosesini izah edərək bildirir ki, əvvəlcə filiz parçaları kömürlə birlikdə kürənin odluğuna qoyulur. Qoşa körük vasitəsilə yaradılan yüksək temperatur filizi əridir, kürənin odluğundakı qaynar metal kütləsindən ərinti zamanı əmələ gələn pas isə kəfgir vasitəsilə çıxarılır. Əlbəttə, sırf dəmir əldə etmək üçün bu, kifayət etmir. Daha sonra ərinti saf dəmir halına gələnədək zindan üzərində döyülür. Çəkic və zindanların rolu, bununla bərabər, dəmirçinin məharəti də məhz bu prosesdə üzə çıxır. Ona görə də xammaldan hazırlanmış dəmir məmulatı davamlılığı və saflığına görə xarici ölkələrdən gətirilən hazır məhsullardan fərqlənir və üstünlük təşkil edir.

Təcrübəli dəmirçi deyir ki, müasir texnologiyaların məişətə və istehsalata dərindən nüfuzu bir sıra sənət növlərini sıradan çıxarsa da, elələri var ki, onlar özünü qoruyub saxlamaq gücünə malikdir. Həmin sənət sahələrinin sırasına daxil olan dəmirçilik bu gün də qədimliyi və ululuğu ilə öz dəyərini və əhəmiyyətini saxlayır. Dədə-babalarımızdan miras qalan bu sənəti yaşatmaq, gələcək nəsillərə ərməğan etmək isə biz dəmirçilərin üzərinə düşür. Lakin onu da təəssüflə deməliyəm ki, indiki gənclərimiz sənət öyrənməyə həvəs göstərmirlər, dəmirçiliyə marağın günü-gündən azalması bu sənətin yolçusu kimi məni narahat etməyə bilməz. Ata-babadan da eşitmişik ki, sənət sahibi heç vaxt çörəksiz qalmaz, sənət, peşə insanın el-oba içində hörmətini birə-beş artırar. Onunçün də bugünkü gəncliyi dədə-babadan miras qalan, adət-ənənələrimizi özündə təcəssüm etdirən qədim sənət növlərini qoruyub yaşatmağa səsləyirəm.

*Günümüzdə bir işi həll etməyə çalışanda böyüklərimiz bizə "Ay bala, bu günün işini sabaha qoymazlar, dəmiri isti-isti döyərlər" söyləyərlər. Öz işinin sənətkarı olan Səməd usta da ağıl və gücünün hesabına yorulmaq bilmədən böyük həvəslə dəmiri isti-isti döyərək bu günün işini sabaha qoymamağa çalışır. Təcrübəli dəmirçiyə öz işində hər zaman belə dəmir iradəylə, dözümlə dayanmağı arzulayıb, emalatxanadan ayrılıram.*

**✍ Nail ƏSGƏROV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Dövlət qulluqçusunun pensiya təminatı necə həyata keçirilir?*

**Cavab:** Dövlət qulluqçusunun və onun ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Dövlət qulluqçusunun pensiyasının məbləği onun dövlət qulluğu vəzifəsində qulluq stajından və dövlət məvacibinin məbləğindən asılıdır. Dövlət qulluqçusuna qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilməsi üçün dövlət qulluğu vəzifəsində minimum 15 il qulluq stajı tələb olunur.

Pensiya yaşına çatmasına, sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum 15 il qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilir.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Diaqnostika Müalicə Mərkəzinin tibb heyəti humanitar tibbi aksiya keçirib

*Naxçıvan Diaqnostika Müalicə Mərkəzi avqustun 5-də Şahbuz Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsində rayon üzrə aztəminatlı ailələrin tibbi müayinə və müalicələrinin aparılması üçün humanitar tibbi aksiya keçirib.*



Aksiya üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanıb və onlar xəstəxanaya dəvət olunublar.

Tibbi aksiyada həkim briqadası 189 müayinə aparıb, 4 nəfər cərrahi əməliyyat olunub. Həmçinin 1 uşaq sünnət edilib. 23 nəfər isə funksional diaqnostika üzrə ultrasəs müayinələrindən keçirilib.

Səhhətində problem aşkar olunanlara ilkin diaqnoz qoyulub, müalicə təyin edilib, tibbi məsləhətlər verilib. 3 nəfər müalicə üçün Diaqnostika Müalicə Mərkəzinə dəvət olunub.

Rayonun Şada kəndindən Tural Mahmudov başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunduqlarına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Keçili kəndindən Rza Əliyev isə bildirib ki, növbəti aksiyada müayinələr nəticəsində müraciət edənlərin sağlamlıqları ilə bağlı problemlərin aşkara çıxarılmasının, müalicələrinin təşkil edilməsinin şahidi oldum. Naxçıvan şəhərindən gələn həkimlərdən ürək-damar cərrahı İntiqam Fətullayevin, ümumi cərrah Nazim İbrahimovun qəbulunda oldum, müayinədən keçdim. Əvvəllər xarici ölkələrdə şəfa axtarırdıq, indi isə sağlamlığımızı öz həkimlərimizə əminliklə etibar edirik.

Həkim briqadası, həmçinin Şahbuz Ahıllar Evində də olub, burada yaşayan 3 ahıla tibbi xidmət göstərib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq belə humanitar aksiyaların digər rayonlarda da ilboyu keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## *"Gələcək üçün maliyyə"* layihəsi çərçivəsində təlimlər davam edir



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindən növbəti "Gələcək üçün maliyyə" adlı təlim keçirilib. 50-dən çox tələbənin cəlb olunduğu təlimdə Naxçıvan Tibb, Musiqi və Dövlət Texniki kolleclərinin tələbələri iştirak edib. Ağbulaq İstirahət Mərkəzinin iclas zalında keçirilən təlimin məqsədi tələbələr arasında maliyyə savadlılığını təşviq etmək, pul, gəlir, qənaət, xərc, investisiya, büdcə kimi konseptlər haqqında biliklərə yiyələnməkdir. Əvvəlcə Maliyyə Tədris Mərkəzinin əməkdaşı layihə barədə ətraflı məlumat verib.

Proqrama uyğun olaraq mərkəzin əməkdaşı Pərviz Babayev tərəfindən "Gələcək üçün maliyyə" mövzusunda hazırlanmış təlim materialı təqdim edilib. Təqdimat zamanı pulun formalaşması və yeni nəsil valyuta, büdcə nədir, büdcənin düzgün şəkildə idarə edilməsi, şəxsi pul vəsaitlərindən planlı şəkildə istifadə, yığım və investisiyanın əhəmiyyəti və digər mövzular haqqında ətraflı məlumat verilib.

Bu mərhələdə 8 komanda iştirak edib və iştirakçılara mərhələnin nəticələrinə müvafiq fərqləndirici sertifikatlar və hədiyyələr təqdim olunub. Qiymətləndirmə meyarlarına görə "İnvestisiya" komandası birinci, "Nuhun gəmisi" komandası ikinci, "İdeya" komandası isə üçüncü yerə layiq görülüb. Qeyd edək ki, "Gələcək üçün maliyyə" layihəsi çərçivəsində təlimlərin gələcəkdə də keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin iyul ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 303246 | 44430 | 44435 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 1045406 | 137905 | 137919 | 100,0 |
| 3. | Şərur rayonu | 835678 | 122538 | 122548 | 100,0 |
| 4. | Ordubad rayonu | 424136 | 60706 | 60710 | 100,0 |
| 5. | Babək rayonu | 840025 | 114387 | 114392 | 100,0 |
| 6. | Culfa rayonu | 363671 | 56441 | 56443 | 100,0 |
| 7. | Kəngərli rayonu | 331626 | 48837 | 48837 | 100,0 |
| 8. | Sədərək rayonu | 121973 | 15899 | 15899 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10544131 | 1552572 | 1584929 | 102,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14809892** | **2153715** | **2186112** | **101,5** |

***İtmişdir***

Quliyev Rafail Aslan oğluna məxsus Ordubad Şoraçeşmə yeməkxanasının texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 626